**Elmi Şurasının 4 saylı iclasının**
**QƏRARLARI**

1. **Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasının müdiri, prof. E.Ə.Qasımzadənin 75 illik yubileyi.**
2. **Elmi innovativ fəaliyyətin vəziyyəti barədə.**

**Məlumat verir:** Elm və innovasiya məsələləri üzrə prorektor, prof. N.M.Aslanova

Qərar: **1. Elmi-innovativ fəaliyyət elmi və milli iqtisadiyyatın müasir və prioritet tələblər nəzərə alınmaqla təşkil edilsin.**

**2. Universitetin elm və təhsil mərkəzi kimi formalaşması Elmi şuranın diqqət mərkəzində saxlanılsın və bu istiqamətdə əməli tədbirlər görülsün.**

**3. Elmi-tədqiqat mövzularının müasirliyi və elmi-praktiki əhəmiyyəti diqqətlə yoxlanılsın. 3 illik elmi-tədqiqat işlərinin planı hazırlandıqda bu məsələlər əsas götürülsün.**

**4. Universitetin professor-müəllim heyətinin indekslənən elmi nəşrlərdə iştirakını yüksəltmək məqsədilə:**

**- Vəzifə seçkilərində nəşrlərlə bağlı yeni tələblərə professor-müəllim heyəti ciddi riayət etsin;**

**- İndeksli jurnallarda nəşrlərlə bağlı professor-müəllim heyətinə tam dəstək göstərilməsi məqsədilə "İşçi qrup" yaradılsın (Elm və innovasiya məsələləri üzrə prorektor və ETŞ-yə tapşırılsın) və bu istiqamətdə zəruri treyninqlər keçirilsin;**

**- İndeksli jurnallarda nəşrlərlə bağlı professor-müəllim heyətinin mükafatlandırılması diqqətdə saxlanılsın.**

**5. Doktorantların yetişdirilməsi prossesinə nəzarət gücləndirilsin Doktorantların vaxtında müdafiəsi üçün zəruri dəstək verilsin. (Elm və innovasiya məsələləri üzrə prorektor).**

**6. Elm və innovasiya məsələləri üzrə prorektor və Beynəlxalq əlaqələr üzrə prorektora tapşırılsın (N.M.Aslanovaya və N.C.Abdullayevaya):**

**- Elmin beynəlmiləlləşdirilməsi istiqamətində fəaliyyət gücləndirilsin;**

**- Partnyor universitetlərlə beynəlxalq konfransların keçirilməsi və nəticələri indekslənməsi təmin edilsin;**

**7. Elmi əsərlər, monoqrafiya, dərsliklərin plagiat yoxlanılması gücləndirilsin.**

**8. Tələbələrin elmi tədqiqata cəlb olunması istiqamətində fəaliyyət gücləndirilsin (Tələbə Elmi Cəmiyyəti və kafedralar) .**

**9. Universitetin elmi nəşrlərinin xüsusilə Elmi əsərlər jurnalının memarlıq və inşaat mexanikası bölmələrində Scopusa təqdim edilməsi üçün təxirəsalınmaz tədbirlər görülsün.**

**10. Kafedraların elmi fəaliyyəti Fakültə Elmi şuralarında müzakirə edilsin.**

**11. Qərarın icrasına nəzarət Elm və innovasiya məsələləri üzrə prorektor prof. N.M.Aslanovaya tapşırılsın.**

3. **Nəqliyyat fakültə dekanının 5 illik fəaliyyəti barədə hesabat**

**Məlumat verir:** dekan, dos.E.N.Yusifzadə

Qərar: **1. Nəqliyyat fakültəsinin dekanı, dos. E.N.Yusifzadənin beş illk hesabatı nəzərə alınsın.**

**2. Fakültədə tələbə qəbulu ilə əlaqədar gənclər arasında təbliğat gücləndirilməsinin və 2024-2025-ci ilin qəbul planının yerinə yetirilməsi təmin edilsin.**

**3. Fakültədə təhsilin keyfiyyətini artırmaq, məzmunu müasirləşdirmək və nəticələrin yüksəldilməsi üçün təxirəsalınmaz işlər görülsün.**

**4. Universitetin strateji fəaliyyət planına uyğun fakültənin strateji inkişaf planı qəbul edilsin və həyata keçirilməsi diqqətdə saxlanılsın.**

5. **İri müəssisələrlə hərtərəfli əməkdaşlığın təşkil edilməsi üçün bütün şərtləri özündə əks etdirən müqavilələrin bağlanması davam etdirilsin.**
6. **Fakültə tərkibindəki kafedraların laboratoriya bazalarının gücləndirilməsinə ehtiyac olduğu qeyd edilsin və yeni laboratoriyaların yaradılması üçün konkret tədbirlər həyata keçirilsin. Bu məqsədlə partnyor təşkilatların imkanlarından istifadə edilsin.**
7. **Universitet tərəfindən bağlanmış müqavilələrə əsasən fakültənin professor-müəllim heyətinin və tədqiqatçıların xarici ölkə universitetlərində ixtisasartırma və stajkeçmələri gücləndirilsin.**
8. **Fakültənin professor-müəllim heyətinin orta yaş göstəricilərinin optimallaşdırılması və gənclərin müəllimlik fəaliyyətinə cəlb edilməsi istiqamətində tədbirlər görülsün.**
9. **Fakültədə elmi-innovativ fəaliyyətin canlandırılması və müasir tələblər səviyyəsinə qalxması üçün konkret tədbirlər görülsün.**
10. **Fakültə gənclər təşkilatları ilə birgə aparılan ideoloji iş qeyd edilsin və bu istiqamətdə səylər artırılsın.**
11. **Dekanlıqda elektron universitet yaradılması istiqamətində fəaliyyət qeyd edilsin.**
12. **Elmi-tədqiqat və tədris-metodiki fəaliyyət gücləndirilsin.**
13. **Qərarın icrasına nəzarət Tədris işləri üzrə prorektor, prof. A.F.Qasımova tapşırılsın.**

**4. Dizayn fakültəsinin yaradılması barədə.**

**Məlumat verir:** Tədris işləri üzrə prorektor, prof. A.F.Qasımov

**Qərar: 1. Universitetdə Dizayn fakültəsi yaradılsın və bu barədə Azərbaycan Elm və Təhsil Nazirliyinə məlumat verilsin.**

2. **Mühit dizaynı, Qrafik və media dizaynı və Təsviri incəsənət kafedraları Dizayn fakültəsi yaradıldıqdan sonra Memarlıq fakültəsinin nəzdindən çıxarılaraq həmin fakültəyə təhkim edilsin.**

**5. Cari məsələlər.**

**5.1.“Sənayenin təşkili və idarə olunması”, “İnsan resurslarının idarə edilməsi” üzrə MBA proqramlarının yeni tədris planlarının müzakirəsi və təsdiqi barədə.**

**Qərar: “Sənayenin təşkili və idarə olunması” və “İnsan resurslarının idarə edilməsi” ixtisaslaşmalar üzrə tədris planları təsdiq edilsin.**

**5.2.“Daşınmaz əmlakın idarə olunması və ekspertizası” magistr proqramının yenilənən tədris planının müzakirəsi və təsdiqi barədə.**

**Qərar: “Daşınmaz əmlakın idarə olunması və ekspertizası” magistr proqramının yenilənmiş tədris planını təsdiq edilsin.**

**5.3. “Biznesin iqtisadiyyatı və menecment” kafedrasının müdiri, prof. M.A.Məmmədov tərəfindən hazırlanmış “İşğaldan azad olunmuş ərazilərin iqtisadi inkişafının İlham Əliyev strategiyası” adlı monoqrafiyanın müzakirəsi və təsdiqi.**

**Qərar: Prof. M.A.Məmmədov tərəfindən hazırlanmış “İşğaldan azad olunmuş ərazilərin iqtisadi inkişafının İlham Əliyev strategiyası” adlı monoqrafiyanın çap edilməsinə icazə verilsin.**

**5.4. Azərbaycanda beynəlxalq təhsil forumunda universitetin iştirakı barədə.**

**Qərar: Məlumat nəzərə alınsın.**

**5.5. Proqram akkreditasiyaları barədə.**
**Qərar: Məlumat nəzərə alınsın.**

**5.6. Beynəlxalq reytinqlər üzrə işçi qrupunun yaradılması barədə.**
**Qərar: 1. "Beynəlxalq reytinqlər" üzrə məsul işçi qrup aşağıdakı tərkibdə təsdiq edilsin:**

1. **Qənirə Məmmədzadə;**
2. **Əkbərli Reyhan;**
3. **Ağayeva Könül;**
4. **Qəniyev Xanlar;**
5. **Muradov İsa;**
6. **Əliyev Fərhad;**
7. **Talıbzadə Sərxan.**

**6. Müsabiqə işi.**
**Qərar: Professor Fərzəliyev Mehralı Məhəmməd oğlu növbəti seçki dövrünə kimi Sənayenin təşkili və idarə edilməsi kafedrasına 0,5 ştat professor vəzifəsinə seçilmiş hesab edilsin.**